**Möhtərəm dünya azərbaycanlılarının Prezidenti İlham Əliyev!**

**Hörmətli qurultay iştirakçıları!**
**Əziz soydaşlarım!**

İlk öncə, Yaponiyada yaşayan azərbaycanlıların səmimi salamlarını və xoş arzularını başda cənab Prezidentimiz olmaqla, bütün qurultay iştirakçılarına və Azərbaycan xalqına çatdırır, hamınızı bu əlamətdar gün münasibəti ilə təbrik edirəm!

Bu yüksək tribunadan Sizlərə, məhz belə bir tarixi gündə xitab etməkdən şərəf duyur, bu möhtəşəm birlik qarşısında baş eyirəm! Bu əzəmətli həmrəylik məni ilhamlandırır, fərəhləndirir; və eyni zamanda duyğulandırır, həyəcanlandırır. Bu gün bir daha Azərbaycanlı olmanın qürurunu yaşayır, Azərbaycanla, Sizlərlə fəxr edirəm!

Çox sevindiricidir ki, diasporumuz sürətlə inkişaf edir, xarci ölkələrdə yaşayan soydaşlarımız ümumi amallarımız və məqsədlərimiz ətrafında təşkilatlanır, birləşirlər. Bu gün burada dünyanın 40-dan çox ölkəsində Azərbaycanımızı təmsil edən həmvətənlərimizin toplaşması, və hər birinin burada bir təşkilatı, bir cəmiyyəti təmsil etməsi diasporumuzun düzgün yolla və yüksələn xətt üzrə tərəqqi etdiyinin bariz göstəriricisidir.

Azərbaycan çox çətin yollardan keçib bu günkü iqtisadi və siyasi inkişaf tempinə qovuşmuşdur. Daxildə aparılan islahtlar, və beynəlxalq münasibətlər sistemi ilə tarazılaşdırılmış şəkildə yürüdülən xarici siyasət bu günkü inkişafın hərəkətverici qüvvəsidir. Bir elmi tədqiqatçı kimi bunu analizlərimə əsaslanaraq çox əminliklə söyləyirəm. İştirakçısı olduğum bütün mötəbər konfranslarda, tədbirlərdə və görüşlərdə bu siyasətin, bu islahatların detallarını faktlara əsaslanaraq məruzə edirəm.

Bütün bu nailiyyətlər ümummilli liderimiz Heydər Əliyevin vaxtilə "əkdiyi ağacların meyvələridir". Böyük müdrikliklə hazırlanmış və möhkəm özüllər üzərində qurulan bu inkişaf sistemi bu gün Azərbaycanı sürətlə irəli aparır və daha neçə onillər boyu irəli aparacaqdır.

Möhtərəm Prezident İlham Əliyev!

Ulu öndərimizin ideyalarını bu gün məharətlə davam etdirdiyinizi, Onun yarımçıq qalmlış planlarını, təməlini qoyduğu bu sistemi peşəkarlıqla yönləndirdiyinizi, bunları yeri gəldikcə zamanın tələblərinə və xalqın ehtiyaclarına uzlaşdırdığınızı, Azərbaycanın milli maraqlarının təmin olunması üçün verdiyiniz əməyi, xalqımızın rifah halının yüksəldilməsi üçün yorulmadan çalışdığınızı dərk edir, bütün bunları çox yüksək qiymətləndiririk. Bu müqəddəs işdə Sizə böyük uğurlar arzulayir, bir daha Sinzinlə həmrəy olduğumuzu bildiririk!

Tanrı Sizə kömək olsun!

Qısaca olaraq təmsil etdiyim təşkilat və icma haqqında Sizlərə məlumat vermək istərdim.

Rəhbərlik etdiyim Azərbycan-Yaponiya Dostluq Cəmiyyəti Yaponiyada fəaliyyət göstərən ilk və yeganə ictimai təşkilatımızdır. 2002-ci ildə cəmiyyətimizi təsis etdiyimiz zaman bu qədər uğur qazanacağımızı təxmin etməmişdim. Çünkü o zaman hər şeyi tək başına qururdum. Bəzi yapon professorlarımdan və yapon dostlarımdan başqa köməyim yox idi. Yeganə maliyyə qaynağım isə Asiya-İnkişaf Bankı və Yapon Hökumətindən aldığım təqaud idi. Amma bütün çətinliklərə baxmayaraq, qısa bir zamanda Yaponiyada yaşayan azərbaycanlıların demək olar ki, hamısının bu cəmiyyətdə təşkilatlanmasını təmin etdim, və ruh yüksəkliyi ilə hamılıqla Vətənimizin təbliğinə başladıq.

Həm cəmiyyətimizin sədri kimi, həm də əməkdaşı olduğum Osaka Universiteti nəzdindəki Beynəlxalq Təhlükəsizlik və Siyasət Mərkəzi adından dəfələrlə Tokyodakı Birləşmiş Millətlər Universitetinin global konfranslarında, ictimai təşkilatların seminarlarında, Yaponiyanın ali və orta məktəblərinin geniş auditoriyalarında Azərbaycanda həyatın bütün sahələrini əhatə edən məruzələr etmişəm. Tədbirlərdə, bir qayda olaraq, əyani vasitələrlə Qarabağ müharibəsinin mahiyyətini açıqlayır, işğalçı Ermənistanın qeyri-konstruktiv mövqeyinin və irticaçı siyasətinin detallatını yapon xalqına və eləcə də digər millətlərin nümayəndələrinə çatdırmağa çalışırıq.

Əyani vəsaitlərin hazırlanıb bizə göndərilməsində göstərdiyi köməyə görə, mütəmadi olaraq problemlərimizlə şəxsən maraqlandığına görə, ardıcıl və dəyərli tövsiyələrinə və məsləhətlərinə görə Komitəmizin sədri hörmətli cənab Nazim İbrahimova dərin təşəkkürümüzü bildiririk!

Təəssüf ki, vaxt məhdudiyyətindən dolayı Yaponiyadakı fəaliyyətimiz haqqında daha ətraflı danışa bilməyəcəyəm. Ümid edirəm, gördüyümüz işlər barəsində cəmiyyətimizin internet səhifəsindən oxuyur, video və foto materiallarla tanış olursunuz.

Yəqin hamınız mənimlə razılaşarsınız ki, ölkə tanıtmanın standart bir yolu yoxdur. Yaşadığımız ölkələrin hər birinin özünəməxsus xüsusiyyərləri var və Vətənimizi tanıtma işində bu xüsusiyyətləri dərindən bilib mənimsəmədən bu işdə istənilən nəticəni əldə etmək çətindir, hətta bəzən qeyri-mümkündur.

Yaponiya bir çox xüsusiyyətləri ilə dünyanın digər ölkələrindən kəskin şəkildə fərqlənir. Bu ölkədə sosial psixologiya dünyanın heç bir ölkəsi ilə müqayisə olunmayacaq qədər fərqlidir. Bu ölkədə insanlar danışmaqdan daha çox dinləməyə və görməyə, dolayısı ilə öyrənməyə üstünlük verirlər. Söylədiklərmi yəqin ki, armızdakı dəyərli yapon qonaqlarımız cənab Fujiwara və cənab Murakami təsdiqləyərlər. Bu arada, fürsətdən istifadə edərək, dəvətimizi qəbul edib uzaq Yaponiyadan Azərbayana gələn, hamımızın sevimlisi, Yaponiyanın Azərbaycandakı keçmiş səfiri cənab Fujiwara Toshiyukiyə təşəkkürümü bildirirəm. Özünüz dediyiniz kimi, ikincı Vətəniniz Azərbaycana xoş gəlmisiniz! *Fujiwara-san, dai ni no kokyou e youkoso!*（藤原さん、第二の故郷へようこそ！）

Möhtərəm cənab Prezident!

Hələ 10 il əvvəl “Azerbaijan International” jurnalına verdiyiniz müsahibədə yapon xalqı haqqında söylədiyiniz xoş sözləriniz, Yaponiyaya və yaponların iş və siyasi mədəniyyətlərinə olan rəğbətinizi açıqca göstərən ifadələriniz bu keçən illərdə bizim bütün tədbirlərimizin əsas şüarı olmuşdur.

Sizin söylədiyiniz kimi, yapon xalqı siyasi mahiyyət kəsb edən məsələrə o qədər də həssaslıq göstərmirlər; istər daxildə, istərsə də beynəlxalq aləmdə. Bununla belə, bu insanlar digər xalqların ədəbiyyatına, mədəniyyətinə, incəsənətinə, musiqisinə və milli kulinariyasına çox böyük maraq göstərir, öyrənirlər.

Amma bizim yaponlara çatdırmaq istədiyimiz sadəcə mədəni dəyərlərimiz deyil, həm də ümumilli problemlərimizdir. Biz, Yaponiyada yaşayan azərbaycanlılar bütün fürsətləri dəyərləndirərək, Azərbaycanımızın problemlərini elmi və mədəni tədbirlərə sintez olunmuş halda təqdim etməklə yaponlarda həm Azərbaycan mədənəyyətinə maraq oyadır həm də milli problemlerimizə diqqət çəkməyə çalışırıq. Məsələn, Xan Şuşinskinin "Qarabağ şikəstəsi"ni səsləndirərkən sənətkarın doğulduğu tarixi Şuşa şəhərindən bəhs etməklə mövzuya girir, həmən ardınca da Qarabağ və onun başına gətirilən musibətlərdən söz açaraq erməni təcavüzü barəsində yaponlara həqiqətləri çatdırmağa çalışırıq.

Nailiyyərlərimizlə bərabər, təbii olaraq, problemlərimiz də var.
Yaponiyada yaşayan soydaşlarımızın sayı digər ölkələrlə müqayisədə çox-çox azdır.
125 milyonluq yapon xalqına Azərbaycan həqiqətlərini çatdırmaq üçün imkanlarımız çox dardır.

Cənab Prezident,

Yaponiya kimi dünyaca nüfuzlu bir ölkədə daha geniş miqyaslı tanıtım və diaspora işləri ilə məşğul ola bilməmiz üçün dövlətizim köməkiyinə ehtiyacımız var. Konkret olaraq, Osaka şəhərində bir Azərbaycan Tanıtim və Mədəniyyət Mərkəzinin açılması və fəaliyyət göstərə bilməsi üçün ümidlərimizi Sizin yardımınıza bağlamışıq. Qeyd edim ki, Yaponiyada bu cür mərkəzlər onlarladır, və təmsil etdikləri ölkələrin hökumətləri tərəfindən ayrılan vəsait hesabına kifayət qədər ciddi işlər görürlər. Təəssüf ki, Yaponiyanın ikinci ən böyük şəhəri və eləcə də bu ölkənin ən iri ticarət və mədəniyyət mərkəzi sayılan Osakada qardaş Tükiyənin də belə bir "Mədəniyyət Mərkəzi" yoxdur. Belə bir mərkəzin 10 milyona yaxın əhalisi olan Osakada açılması həm ölkəmizin geniş və effektli tanidılmasının həm də bu regionda yaşayan azəri və türk icmalarının birliyinin təminatçısı olardı. Bu da bizim Yaponiyadakı azəri və türk soydaşlarımızın Sizdən tək xahişidir.

Çıxışımın sonunda, bu möhtəşəm qurultayın təşəbbüskarı
Möhtərəm Prezidentimiz İlham Əliyevə dərin minnətdarlığımı bildirəm!

Qurultayın təşkil olunması üçün böyük əmək sərf edən
cənab sədr Nazim İbrahimova və bütün komitə əməkdaşlarına təşəkkür edirəm!

Qurultayımızın işinə uğurlar, iştirakçılara isə xoş əhval-ruhiyə arzulayıram!

Diqqətinizə görə təşəkkür edirəm!